**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# VƏRƏSƏLİK MÜNASİBƏTLƏRİNİN BEYNƏLXALQ-HÜQUQİ TƏNZİMLƏNMƏSİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİ

İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"

Elm sahəsi: Hüquq

İddiaçı: **Xanımana Rüstəm qızı Qafarova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2023**

Dissertasiya Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: hüquq elmləri doktoru, dosent
**Etibar Əli oğlu Əliyev**

Rəsmi opponentlər: hüquq elmləri doktoru, dosent
**Sübhan Fərmayil oğlu Əliyev**

hüquq üzrə fəlsəfə doktoru, dosent
**Günel Adil qızı Xasayeva**

hüquq üzrə fəlsəfə doktoru
**Səyyad Tofiq oğlu Məcidov**

Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: hüquq elmləri doktoru, dosent
**Turqay İmamqulu oğlu Hüseynov**

Dissertasiya şurasının elmi katibi: hüquq üzrə fəlsəfə doktoru, dosent
**Əlizadə Qurbanəli oğlu Məmmədov**

Elmi seminarın sədri: hüquq elmləri doktoru, dosent
**Rüstəm Fəxrəddin oğlu Məmmədov**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.s. ELMİ KATİB SCIENTIFIC SECRETARY İmzanı təsdiq edirəm: "20" 07 2023

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İqtisadi və mədəni sahələrdə inteqrasiyanın təzahüri qismində çıxış edən dövlətlər arasındakı beynəlxalq əməkdaşlıq, müvafiq olaraq dövlətlərarası münasibətlərlə yanaşı, həmin dövlətlərə mənsub olan fiziki şəxslər arasında əmlak və şəxsi qeyri-əmlak münasibətlərinin yaranmasını şərtləndirir. Bu münasibətlərin tənzim edilməsi üçün müəyyən normalar sisteminə ehtiyac duyulur. Müasir dövrdə qeyd olunan münasibətləri beynəlxalq hüquq normaları olmadan tənzim etmək mümkün deyildir.

Belə münasibətlərin bir növünü də vərəsəlik münasibətləri təşkil edir. Bu münasibətlər üçün xarakterik olan üç əsas əlamət: 1) bu münasibətlərin beynəlxalq həyatdan irəli gəlməsi; 2) onların bir dövlətin hüquq sistemi çərçivəsindən kənara çıxması; 3) subyekti qismində müxtəlif dövlətlərə məxsus fiziki şəxslərin çıxış etməsi, onu milli vərəsəlik münasibətlərindən fərqləndirir. Qeyd olunan əlamətlərin xarakterik olduğu vərəsəlik münasibətləri müxtəlif dövlətlərin hüquq sistemləri ilə bağlı olmaqla beynəlxalq münasibətlərdir. Bu isə həmin vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi-tənzimetmənin obyekti olmasını şərtləndirir.

Beynəlxalq sferada yaranan vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsini aşağıdakı amillərlə də əsaslandırmaq olar: 1) bu tənzimetmənin insan hüquqlarının müdafiəsi çərçivəsində həyata keçirilməsi; 2) bu tənzimetmədə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərindən hüquqi əsas qismində istifadə edilməsi; 3) bu tənzimetmədə beynəlxalq hüququn mənbələrindən istifadə edilməsi; 4) tənzimetmə obyektini təşkil edən vərəsəlik münasibətlərinin bir neçə dövlətin hüquqi sistemi ilə bağlı olması, həmin dövlətlərin milli hüquqi sistemləri arasında beynəlxalq qarşılıqlı əlaqənin (əməkdaşlığın) yaranması.

Təcrübə göstərir ki, dini, milli mədəni, iqtisadi, sosial xüsusiyyətlərin təsiri ilə formalaşan vərəsəlik münasibətləri özünün "mühafizəkarlığı" ilə fərqlənir. Bu xüsusiyyət vərəsəlik münasibətlərinin tənzimlənməsi üzrə dövlətlərin milli qanunvericiliyinin fərqli olmasını şərtləndirir. Yalnız milli qanunvericilikləri

yaxınlaşdırmaqla (harmonizasiya) və ya ümumiləşdirilmiş hüquq normaları yaratmaqla (unifikasiya) bu fərqləri aradan qaldırmaq olar. Bu isə beynəlxalq hüquqi vasitələr olmadan qeyri-mümkündür. Məhz buna görə vərəsəlik münasibətləri sahəsində milli qanunvericiliklərin harmonizasiya edilməsi və unifikasiyanın aparılması müasir beynəlxalq hüququn əsas problemlərindən biridir.

AR-in beynəlxalq münasibətlər sisteminə inteqrasiyası, müvafiq olaraq AR-ə mənsub fiziki şəxslərin müxtəlif beynəlxalq vərəsəlik münasibətlərinə daxil olmasını şərtləndirir. Bu isə AR-ə mənsub fiziki şəxslərin xaricdə vəfat etməsi, onlar tərəfindən vəsiyyətnamənin xaricdə tərtib edilməsi, onlara məxsus miras əmlakın başqa dövlətin ərazisində olması və s. nəticəsində yaranan vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsini zəruri edir. Bu tənzimetmənin səmərəliliyinin artırılması istiqamətində AR-in vərəsəlik qanunvericiliyinin digər dövlətlərin qanunvericiliyi ilə yaxınlaşdırılmasını, o cümlədən bu münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsi vasitələrinin milli hüquqi sistemdə realizə olunması üçün münbit şəraitin yaradılmasını aktual edir.

Qeyd olunanlar vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi probleminin aktuallığını şərtləndirir. Bu kontekstdə dissertasiya işi nəzəri və təcrübi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Dissertasiya işində mövzu ilə bağlı tədqiqatlar aparmış yerli və xarici müəlliflərin elmi əsərlərinin təhlili aparılmışdır. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin ayrı-ayrı aspektləri üzrə tədqiqatlar aparılsa da, bu məsələ ayrıca tədqiqat obyekti olaraq işlənilməmişdir. Belə ki, sovet dövründə və hazırkı postsovet məkanında tədqiqatlar bir qayda olaraq beynəlxalq vərəsəlik münasibətlərinin kolliziya hüquqi tənzimlənməsi istiqamətində aparılmışdır. Bu sırada A.M.Abdulxaliqovun ("Beynəlxalq xüsusi hüquqda vərəsəlik")[1], A.V.Alyoşinanın ("Beynəlxalq xüsusi hüquqda qanun üzrə vərəsəliyin kolliziya məsələləri")[2],

---

[1] Абдулхалигов, А.М. Наследование в международном частном праве: / дис. доктор философии по праву / - М., 2010.

[2] Алешина, А.В. Коллизионные вопросы наследования по закону в международном частном праве. Монаграфия. / А.В. Алешина. - Санкт-Петербург, - 2008.

M.S.Abramenkovun ("Müasir beynəlxalq xüsusi hüquqda vərəsəlik münasibətlərinin kolliziya hüquqi tənzimlənməsi problemləri")[3], M.V.Nikonovanın ("Xarici tərkibli vəsiyyət üzrə vərəsəliyin hüquqi tənzimlənməsi")[4], İ.L.Popuşoyun ("Xarici ünsürlü vərəsəlik institutuun mülki hüquqi tənzimlənməsi")[5], Q.A.Samailovun ("Xarici ünsürlü vərəsəliyin kolliziya hüquqi tənzimlənməsinin müasir qanunvericilik və doktrinal problemləri")[6], Z.Ş.Şamuhamedovanın ("Beynəlxalq xüsusi hüquqda vərəsəlik")[7] və s. adlarını qeyd edə bilərik.

Milli hüquq doktrinasında vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi tədqiqat predmeti olmamışdır. Yalnız dərslik (Allahverdiyev S.S., Dəmirçiyeva M.D.) və elmi məqalələr (Dünyamalıyeva R.S., Yusifov Ş.M.) səviyyəsində vərəsəlik münasibətlərinin hüquqi tənzimlənməsinin ayrı-ayrı məsələlərinə toxunulmuşdur. Azərbaycan hüquq doktrinasında vərəsəlik münasibətlərinə aid dissertasiya işi səviyyəsində yalnız bir tədqiqat aparılmışdır. Belə ki, İlham Bayram oğlu Əhmədovun "Vəsiyyətnamə üzrə vərəsəlik"[8] adlı dissertasiya işi vərəsəlik münasibətlərinin yalnız bir aspektinə həsr edilmişdir.

Bundan başqa vərəsəlik münasibətlərinin hüquqi tənzimlənməsinin ayrı-ayrı aspektləri dərslik, dərs vəsaiti və elmi məqalələr

---

[3] Абраменков, М.С. Проблемы коллизионно-правового регулирования наследственных отношений в современном международном частном праве: / дис. доктор философии по праву / - М., 2007.

[4] Никонова, М.В. Правовое регулирование наследования по завещанию с иностранным составом: / дис. доктор философии по праву / - М., 2007

[5] Папушой, И.Л. Гражданско-правовое регулирование института наследования с участием иностранного элемента: / дис. доктор философии по праву /- М., 2007.

[6] Самаилов, Г.А. Современные законодательные и доктринальные проблемы коллизионного регулирования наследственного правопреемства, осложненного иностранным элементом: / дис. доктор философии по праву / - М., 2012

[7] Шамухамедова, З.Ш. Наследование в международном частном праве. Ташкент, 2012

[8] Ахмедов И.Б. Завещательное правопреемство: / дис. доктор философии по праву / - Ташкент, 1997

səviyyəsində xarici müəlliflər: Angelika F., Anufriyeva, L.P., Boquslavski M.M., Hilal Özay, Feriha B. T., Garb L., Kennet C.G., Lisa N.F., Lunç, L.İ., Medvedev, İ.Q., Popesku, D.A., Rubanov, A.A., Sema, Ç. K., Schwind M.A., Suxanov, E.A., Tanrıbilir F.B., Yerpılayeva N.Y. və s. tərəfindən tədqiq edilmişdir. Dissertasiya işində qeyd olunan tədqiqatlardan elmi-nəzəri baza olaraq istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi məsələsi təşkil edir. Tədqiqat işinin predmetini isə AR qanunvericiliyi ilə qarşılıqlı nisbətdə vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi ilə bağlı hüquqi məsələlər: vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin xüsusiyyətləri, beynəlxalq-hüquqi tənzimetmənin prinsipləri və mənbələri, bu sahədə beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının hüquq sistemində tətbiqi xüsusiyyətləri və s. təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini Azərbaycan Respublikasının qanunvericiliyi ilə qarşılıqlı nisbət kontekstində vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi imkanlarının və müvafiq beynəlxalq hüquq normalarının realizəsi xüsusiyyətlərinin müəyyən edilməsi istiqamətində elmi-nəzəri əsasların formalaşdırılması təşkil edir.

Qeyd edilən məqsədə nail olmaq üçün tədqiqatda aşağıdakı **vəzifələr** müəyyən edilmişdir:

- vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin xüsusiyyətlərini müəyyən etmək;
- vərəsəlik hüququnun insan hüquqları sistemində yerini aydınlaşdırmaq;
- vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin prinsiplərini təhlil etmək;
- vərəsəlik münasibətlərinin tənzimlənməsi üzrə milli qanunvericiliklərin harmonizasiya imkanlarının müəyyən edilməsi istiqamətində AR qanunvericiliyi ilə digər dövlətlərin qanunvericiliyini müqayisə etmək;

- vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin əsas mənbəyi qismində beynəlxalq müqavilələrin əhəmiyyətini təhlil etmək;

- Avropa İttifaqı nümunəsində komunitar hüquq aktlarının vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsindəki rolunu müəyyən etmək;

- vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsindəki əhəmiyyəti baxımından Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent təcrübəsini təhlil etmək;

- vərəslik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində beynəlxalq məhkəmə aidiyyatını müəyyən etmək;

- vərəsəlik münasibətləri sferasında beynəlxalq hüquq normalarının tətbiq xüsusiyyətlərini araşdırmaq.

**Tədqiqat metodları.** Tədqiqat işinin hazırlanmasında ümumnəzəri və xüsusi hüquqi tədqiqat metodlarından istifadə edilmişdir. Xüsusilə müqayisəli-hüquq, formal-məntiqi, sistemli analiz kimi metodlar geniş tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın elmi yeniliyini özündə ifadə edən aşağıdakı yeni **elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi, ilk növbədə maddi əsas qismində münasibətlərin özünəməxsus xüsusiyyətləri ilə müəyyən olunur. Bu xüsusiyyət, onların bir dövlətin sərhədlərindən kənara çıxmaqla beynəlxalq münasibətlər sisteminə daxil olmasından irəli gəlir. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi aşağıdakı amillələrlə də şərtlənir: 1) beynəlxalq vərəsəlik münasibətlərinin insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi çərçivəsində tənzimlənməsi; 2) beynəlxalq vərəsəlik münasibətlərinin tənzimlənməsində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinin hüquqi əsas qismində çıxış etməsi; 3) beynəlxalq vərəsəlik münasibətlərinin tənzimlənməsində beynəlxalq hüququn mənbələrindən istifadə edilməsi; 4) beynəlxalq vərəsəlik münasibətlərinin bir neçə dövlətin hüquq sistemi ilə bağlı olmasının, həmin milli hüquq sistemləri arasında beynəlxalq qarşılıqlı əlaqənin (əməkdaşlığın) yaranmasını şərtləndirməsi.

2. Vərəsəlik münasibətlərinin insan hüquqlarının müdafiəsi çərçivəsində beynəlxalq-hüquqi tənzimlənməsinin özünəməxsusluğu aşağıdakılarla şərtlənir: 1) beynəlxalq vərəsəlik münasibətlərinin subyekti qismində hər hansı fiziki şəxs deyil, xüsusi statusa malik olan əhali kateqoriyaları (*əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, qaçqınlar, əməkçi miqrantlar və s.*) çıxış edir; 2) xarici dövlətdə və ya xarici hüquq əsasında əldə edilən subyektiv vərəsəlik hüquqları tanınır. Qeyd olunan özünəməxsusluq çərçivəsində aşağıdakıların müəyyən edilməsi zəruridir: 1) xüsusi subyektlərin vərəsəlik hüququnun və ya əldə edilən vərəsəlik hüququnun insan hüquqları sistemində yerinin müəyyən olunması; 2) bu hüquqların zəruri müdafiəsinin təmin edilməsi məqsədi ilə vətəndaşlıq prinsipindən istiadə edilməsi.

3. Beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin maddi hüquqi mənada mənbəyini təşkil edir. Bu mənada qeyd olunan prinsiplər imperativ norma olmaqla beynəlxalq hüquq qaydasının əsasını təşkil edir. Bir tərəfdən, vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində istifadə olunan digər beynəlxalq hüquqi prinsiplər, o cümlədən beynəlxalq müqavilələr bu prinsiplər əsasında və ona uyğun yaranır (*normayaradıcılığı və ya maddi aspekt*). Digər tərəfdən, bu prinsiplərə zidd olan hər hansı beynəlxalq hüquq norması tətbiq edilə bilməz (*tətbiqi və ya prosessual aspekt*).

4. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi, bu münasibətlərin xüsusi hüquqi xarakterindən irəli gələrək, müvafiq dövlətlərin milli yurusdiksiyası çərçivəsində realizə olunması ilə şərtlənir. Bu xüsusiyyət vərəsəlik münasibətlərinə aid beynəlxalq hüquq normalarının həmin dövlətlərin yurisdiksiyası çərçivəsində maddi hüquqi və prosesual hüquqi realizəsini zəruri edir. Qeyd olunan realizə: inkorporasiya, göndərmə və resepsiya formalarında baş verir.

5. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi istiqamətində dövlətlərin milli qanunvericiliyinin harmonizasiyası, milli hüquq sistemləriarası münasibətlərin təzahürü qismində çıxış edir. Təcrübədə bu münasibətlər aşağıdakı formalarda

həyata keçirilir: 1) qanunvericiliyin resepsiyası; 2) qarşılıqlı harmonizasiya; 3) dolayısı unifikasiya.

6. Unifikasiya vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində əsas məqsədi təşkil edir. Bu məqsədə nail olunmasında beynəlxalq müqavilə daha səmərəli vasitə hesab olunsa da, unifikasiya formaları bununla məhdudlaşmır. Belə ki, bu unifikasiya beynəlxalq təşkilatların daxili hüquqi aktları, o cümlədən komunitar aktlar (Avropa İttifaqı nümunəsində) formasında da mümkündür.

7. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin əsas mənbəyi qismində çıxış edən beynəlxalq müqavilələr, predmet sferası və təsbit etdiyi normaların xarakteri ilə şərtlənən özünəməxsus xüsusiyyətlərə malik olmaqla yanaşı, beynəlxalq müqavilələr üçün xarakterik olan tələbləri də özündə ehtiva edir: 1) "Müqavilələr hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasına müvafiq olaraq, beynəlxalq hüququn *jus cogens* normalarına zidd ola və tətbiq edilə bilməz; 2) yalnız bu Konvensiyanın tələblərinə uyğun (m.31-33) təfsir edilməlidir.

8. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində maddi və ya kolliziya normalarını unifikasiya edən universal və ya regional beynəlxalq aktların (ilk olaraq müqavilələrin) olmaması şəraitində ikitərəfli beynəlxalq müqavilələr daha səmərəli tənzimetmə mənbəyi qismində çıxış edir. Qeyd olunan aktların mövcudluğu şəraitində ikitərəfli beynəlxalq müqavilələrin tətbiqi, onların müvafiq tərəfləri arasında daha konkret tənzimetmə rejimi müəyyən etməsi ilə şərtlənir. Bu halda ikitərəfli beynəlxalq müqavilə normalarının tətbiqi, üzv dövlətlərin tərəfdar olduğu çoxtərəfli beynəlxalq müqavilələrin imperativ normalarına zidd ola bilməz.

9. AR-in hüquq sistemində "şərh presedenti" olaraq qəbul olunan AİHM-in qərarları, vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin əlavə hüquqi mənbəyi qismində çıxış edir. Bu vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi üçün yeni tendensiyadır. AİHM-in qərarları bu formada vərəsəlik hüququnun insan hüquqları sistemində yerinin müəyyən edilməsində, eləcə də insan hüquqları sferasındakı beynəlxalq müqavilələrin vərəsəlik hüququ ilə bağlı konkret müddəa nəzərdə tutan və ya

tutmayan, amma vərəsəlik hüququna da şamil edilə bilən (məsələn, mülkiyyət hüququna aid) müddəaların təfsirində mühüm əhəmiyyətə malikdir.

**Tədqiqatın elmi yeniliyi.** Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi hüquq doktrinasında kompleks elmi tədqiqat obyekti olmamışdır. Təqdim olunan dissertasiya işində bu məsələ AR qanunvericiliyi ilə qarşılıqlı nisbətdə kompleks şəkildə təhlil edilir. İlk dəfə olaraq vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi insan hüquqları kontekstində təhlil edilir. Eyni zamanda vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi milli hüquq sistemləriarası beynəlxalq əlaqələr müstəvisində araşdırılır. Vərəsəliklə bağlı beynəlxalq hüquq normalarının AR-in hüquq sistemində tətbiqi xüsusiyyətləri, milli hüquq doktrinasında ilk dəfə olaraq dissertasiya işi səviyyəsində tədqiq edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin elmi yeniliyə malik olması, təqdim olunan elmi müddəaların və təkliflərin nəzəri və təcrübi baxımdan əhəmiyyətli olmasını şərtləndirir. Tədqiqat işindəki elmi müddəalar, tövsiyə və təkliflər vərəsəlik münasibətlərinin hüquqi tənzimlənməsi ilə bağlı gələcək elmi tədqiqatlarda nəzəri baza olaraq istifadə edilə bilər. Tədqiqatın nəticələrindən beynəlxalq xüsusi hüquq, vərəsəlik hüququnun tədrisi prosesində istifadə oluna bilər. Eyni zamanda təqdim olunan tövsiyyə və təkliflər vərəsəliklə bağlı normayaradıcılığı prosesində və məhkəmə təcrübəsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin mühüm elmi nəticələri AR-də və xaricdə nəşr olunan nüfuzlu elmi jurnallarda və beynəlxalq konfrans materiallarında çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmişdir.

**Tədqiqat işinin strukturu.** Dissertasiya işi giriş, özündə 10 paraqrafı birləşdirən 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın işlənmə dərəcəsi, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları nəzəri və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli **"Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin xüsusiyyətləri"** adlanır və üç paraqrafdan ibarətdir. Bu fəsildə vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin xüsusiyyətləri və prinsipləri araşdırılır.

**Birinci paraqrafda** vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin məzmunu və xüsusiyyətləri təhlil edilir. Qeyd olunur ki, beynəlxalq dövriyyədə baş verən vərəsəlik münasibətlərinin malik olduğu xüsusiyyətlər, onların beynəlxalq-hüquqi tənzimetmə obyekti olmasını şərtləndirir. Müəllif hüquq camiyyəsində mübahisə doğura biləcək bu fikri əlavə olaraq aşağıdakı amillərlə əsaslandırır.

*Birinci amil*, vərəsəlik münasibətlərinin "bütövlükdə insan cəmiyyətinin inkişafının şərti olan vərəsəlik hüququnun" (*Rudolf İerinq*) realizəsi prosesində yaranmasını nəzərə alsaq, bu münasibətlərin beynəlxalq-hüquqi tənzimlənməsinin insan hüquqlarının müdafiəsindən kənar baş verməsi mümkünsüzdür. Bunu iki cəhətdən əsaslandırmaq olar: 1) beynəlxalq vərəsəlik münasibətlərinin subyekti qismində hər hansı fiziki şəxs deyil, xüsusi statusa malik olan əhali kateqoriyaları (*əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, qaçqınlar, əməkçi miqrantlar və s.*) çıxış edir. Bununla bağlı aşağıdakı ilkin nəticələri qeyd etmək olar: a) insan hüquqlarına dair, xüsusilə qeyd olunan əhali kateqoriyalarının hüquqi statusuna aid beynəlxalq müqavilələr beynəlxalq vərəsəlik münasibətərinin beynəlxalq-hüquqi tənzimlənməsində hüquqi əsas olaraq çıxış edir; b) AR qanunvericiliyi insan hüquqları sahəsində milli qanunvericiliyin beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsini təsbit edir; 2) xarici dövlətdə və ya xarici hüquq əsasında əldə edilən subyektiv vərəsəlik hüquqları tanınır.

*İkinci amil*, beynəlxalq vərəsəlik münasibətlərinin tənzimlənməsində beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərindən hüquqi əsas qismində istifadə edilməsidir. Qeyd edilir ki, bu prinsiplər vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin maddi hüquqi mənada mənbəyini təşkil edir. Yəni vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində iştirak edən xüsusi prinsiplər, beynəlxalq müqavilə normaları, o cümlədən milli qanunvericilik bu prinsiplərə əsaslanır. AR qanunvericiliyində "beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsip və normalarının üstünlüyü"nün normayaratma fəaliyyətinin əsas prinsipi olaraq təsbit olunmasını da bu mənada qəbul etmək lazımdır.

*Üçüncü amil,* vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində beynəlxalq hüququn mənbələrdən istifadə edilməsidir. BMT Nizamnaməsindəki "beynəlxalq müqavilələr və beynəlxalq hüququn digər mənbələri" ifadəsinə əsaslanaraq qeyd edilir ki, bu mənbələrin dairəsi beynəlxalq hüquqla tənzimlənir. AR Konstitusiyasının "beynəlxalq aktların hüquqi qüvvəsi" adlanan 151-i maddəsində yalnız bu aktlar sırasında beynəlxalq müqavilələrə istinad etməsi, bir tərəfdən, beynəlxlq müqavilənin əsas hüquqi akt olmasını, digər tərəfdən, digər beynəlxalq aktlardan istifadə edilə bilməsini təsdiq edir. Digər beynəlxalq aktların olması isə, beynəlxalq müqavilələrdən tam imtina edilməsini şərtləndirmir. Belə ki, "Vərəsəlik məsələləri üzrə yurisdiksiya, tətbiq edilən hüquq, qərarların tanınması və icrası, notarial aktların qəbul edilməsi və icrası, o cümlədən vərəsəlik barədə avropa şəhadətnaməsinin yaradılması haqqında" 650/2012 saylı Avropa Reqlamenti (bundan sonra - 650/2012 saylı Reqlament) qəbul edilməsinə qədər bu və ya digər üzv dövlətin iştirak etdiyi beynəlxalq müqavilələrin tətbiqini istisna etmir. Digər tərəfdən, vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində AİHM-in qərarları da əlavə mənbə qismində istifadə edilir.

*Dördüncü amil,* vərəsəlik münasibətinin bir neçə dövlətin hüquqi sistemi ilə bağlı olması, həmin dövlətlərin milli hüquqi sistemləri arasında beynəlxalq qarşılıqlı əlaqənin (əməkdaşlığın) yaranmasını şərtləndirir. Bu əlaqə əsasən iki formada baş verir: 1)

kolliziya norması əsasında xarici hüququn vərəsəliklə bağlı normalarının tətbiq edilməsi; 2) xarici hüquq əsasında əldə edilən subyektiv vərəsəlik hüququnun tanınması. Əslində bu formalar milli hüququn ərazidənkənarlıq tətbiqinin təzahürüdür. İnsan hüquqlarının müdafiəsi müstəvisində bir dövlətin hüququna uyğun tərtib edilən vəsiyyətnamə və ya əldə edilən vərəsəlik hüququ digər dövlətin hüquq sistemində qəbul edilməlidir.

**İkinci paraqrafda** beynəlxalq-hüquqi tənzimetmə kontekstində vərəsəlik hüququnun insan hüquqları sistemində yeri məsələsi təhlil edilir. İnsan hüquqlarına aid mövcud beynəlxalq müqavilələrdə vərəsəliklə bağlı konkret normanın olmaması şəraitində müəllif, vərəsəlik hüququnun insan hüquqları sistemində yeri məsələsini "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyası (bundan sonra - Avropa Konvensiyası) və AİHM-in qərarları əsasında təhlil edir.

Bu təhlil əsasında müəyyən olunmuşdur ki, Avropa Konvensiyasının 6-cı (ədalətli məhkəmə araşdırması), 8-ci (şəxsi həyata və ailə həyatına hörmət) və 14-cü (ayrı seçkiliyin qadağan olunması) maddələrində və 1 saylı Protokolun 1-ci (mülkiyyət hüququ) maddəsində nəzərdə tutulan hüquqlar dolayısı yolla özündə vərəsəlik hüququnu da ehtiva edir.

Bununla yanaşı, AİHM-in "*Molla Salih Yunanıstana qarşı*" (iş nömrəsi: 20452/14) 18.06.2020 tarixli qərarının təhlili əsasında müəllif, vəsiyyət etmək hüququnu mülkiyyətdən istifadə hüququnun məzmun ünsürü kimi müəyyən edir. Yəni, mülkiyyətdən istifadə etmək hüququnun məzmununda vəsiyyət etmək hüququ da ehtiva olunur.

Vərəsəlik hüququnun insan hüquqları sistemində yerinin müəyyən edilməsi məqsədi ilə müəllif bir sıra dövlətlərin qanunvericiliyini müqayisəli təhlil edir. Qeyd olunur ki, dövlətlərin qanunvericilik təcrübəsində bu məsələyə eyni cür münasibət yoxdur. Belə ki, vərəsəlik hüququ bəzi dövlətlərin qanunvericiliyində "Mülkiyyət hüququ"nun tərkibində (məsələn, İspaniya, Qatar, Polşa Rusiya Federasiyası, Türkiyə), iqtisadi hüquqlar bölməsində (məsələn, Yəmən), ailə ilə bağlı hüquqlar sırasında (məsələn, Bəhreyn) təsbit edeilir. Amma müqayisəli təhlilin nəticəsi olaraq,

qeyd edilir ki, dövlətlərin qanunvericilik təcrübəsində vərəsəlik hüququnun mülkiyyət hüququnun tərkib ünsürü kimi müəyyən edilməsi faktı üstünlük təşkil edir. Hansı ki, AR qanunvericiliyi də bu mövqedən çıxış edir. Bu mövqeyə uyğun olaraq AR Konstitusiyanın 29-cu maddəsinə əsasən, vərəsəlik hüququ subyektiv mənada özündə aşağıdakı hüquqları ehtiva edir: 1) şəxsin mülkiyyətini miras qoymaq hüququ; 2) vəsiyyət etmək hüququ; 3) vərəsələrin mirasdan pay almaq hüququ.

**Üçüncü paraqrafda** vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin prinsipləri təhlil edilir. Qeyd edilir ki, prinsiplərdən vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi üzrə həm normayaradıcılığında (maddi mənada mənbə olaraq), həm də tətbiq prosesində (bibaşa olaraq) istifadə edilir.

Bu prinsiplər şərti olaraq aşağıdakı kimi təsnif edilir: 1) hüququn ümumi prinsipləri; 2) beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri; 3) beynəlxalq xüsusi hüququn prinsipləri.

Bununla yanaşı, vərəsəlik hüququnun beynəlxalq-hüquqi tənzimlənməsinin prinsipləri insan hüquqlarının müdafiəsi müstəvisində nəzərdən keçirilir. Qeyd olunur ki, bu tənzimetmə beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə əsaslansa da, insan hüquqları və azadlıqlarına hörmət prinsipi təməl prinsip rolunda çıxış edir. Ayrı-seçkiliyin qadağan edilməsi və hüquq bərabərliyi təməl prinsipi məzmun ünsürü olaraq təhlil edilir.

Qeyd edilir ki, vərəslik münasibətlərinə nisbətdə bu prinsiplər: 1) kişi və qadın bərabərliyi; 2) rəsmi nikahdan doğulan uşaqlarla qeyri-rəsmi nikahdan doğulan uşaqların hüquq bərabərliyi; 3) dini nikah və rəsmi nikahda olan tərəflərin hüquq bərabərliyi kimi təzahür edir. Bu təzahür formalarının xüsusiyyətlərinin müəyyən edilməsi istiqamətində insan hüquqları sahəsində mövcud olan beynəlxalq müqavilələr, o cümlədən AİHM-in bununla bağlı qərarları təhlil edilir.

Eyni zamanda qeyd edilir ki, beynəlxalq hüququn ümumqəbul edilmiş prinsipləri ilə yanaşı, bu prinsiplərdən irəli gələn və daha çox xüsusi beynəlxalq münasibətlər sferası üçün xarakterik olan: 1) qarşılıqlıq; 2) milli ümumi qaydanın qorunması; 3) milli rejim

prinsipləri vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində əhəmiyyətli rol oynayır.

İkinci fəsil **“Vərəslik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin əsasları və Azərbaycan Respublikasının qanunvericiliyi”** adlanmaqla beş paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** vərəsəliklə bağlı milli qanunvericiliyin harmonizasiyası problemi araşdırılır. Bu məqsədlə AR qanunvericiliyi ilə digər dövlətlərin qanunvericiliyi müqayisəli təhlil edilir. Qeyd edilir ki, daha çox “mühafizəkar” xarakteri ilə seçilən vərəsəlik qanunvericiliyinin harmonizasiyası, vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan paraqrafda milli qanunvericiliyin harmonizasiya perspektivləri təhlil edilir. Burada AR qanunvericiliyi təcrübəsində harmonizasiyanın resepsiya və qarşılıqlı harmonizasiya formalarından istifadə imkanları müəyyən edilir. Sonuncu formanın üstünlükləri MDB Parlamentlərarası Assambleyasının 1996-cı ildə qəbul etdiyi Model Mülki Məcəllə nümunəsində araşdırılır. Qeyd edilir ki, təcrübədə istifadə edilən bu harmonizasiya formaları əslində milli hüquq sistemlərarası münasibətlərin təzahüri qismində çıxış edir.

Təhlil nəticəsində AR-in vərəsəlik qanunvericiliyinin harmonizasiyası istiqamətində aşağıdakı təkliflər irəli sürülür: 1) Mülki Məcəllənin 1243-cü maddəsinin realizəsi istiqamətində 1256-cı maddə Mülki Məcəllədən çıxarılmalı və miras əmlakı qəbul etməklə bağlı heç bir hərəkətin həyata keçirilməməsi mirasdan imtinaya bərabər tutulmalıdır; 2) vərəsəlik hüququnun realizəsi baxımından Mülki Məcəllənin 1193-cü maddəsinin “məcburi pay hüququnun ölmüş şəxsin fəaliyyət qabiliyyəti olmayan uşaqları, əmək qabiliyyəti olmayan valideynləri və ya həyat yoldaşı və himayəsində olan əmək qabiliyyəti olmayan şəxslərə verilməsi” kimi dəyişdirliməsi daha məqsədəuyğun olardı; 3) insan hüquqları baxımından 16 yaşına çatmış şəxslərin vəsiyyət etmək hüququna malik olmaları məqsədəmüvafiq olardı; 4) vəsiyyət etmək hüququndan istifadə edə bilmək vəziyyətdən və şəraitdən asılı olmayaraq həyata keçirilə bilməlidir. Bu baxımdan hər hansı fövqəladə hadisənin baş verdiyi və yaxud müharibədə olan şəxslərin üç şahidin iştirakı ilə şifahi

vəsiyyətnamə tərtib etmələrinə icazə verilməsi məqsədə müvafiqdir; 5) Mülki Məcəllənin 1165-ci maddəsinin realizəsi kontekstində 1134 və 1135-ci maddələrə hüquqi şəxslərin də qanun üzrə vərəsə ola bilmələri ilə bağlı müddəa əlavə olunmalıdır.

**İkinci paraqrafda** vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin başlıca hüquqi əsası kimi universal beynəlxalq müqavilələr: "Vəsiyyətnamənin formasına aid qanunların kolliziyası haqqında" 1961-ci il Haaqa konvensiyası, "Vəsiyyətnamənin formasına dair Vahid qanun haqqında" 1973-cü il Vaşinqton konvensiyası, "Ölmüş şəxsin əmlakının beynəlxalq səviyyədə idarə edilməsi barədə" 1973-cü il Haaqa konvensiyası, "Ölmüş şəxsin əmlakına tətbiq olunan hüquq haqqında" 1989-cu il Haaqa konvensiyası ayrı-ayrı təhlil edilir.

Qeyd edilir ki, predmet sferası baxımından özünəməxsus xüsusiyyətlərə malik olsa da, beynəlxalq müqavilələrin məqsədi, vərəsəlik münasibətləri sahəsində ümumi hüquq normalarının yaradılmasına nail olmaqdır. Yəni bu müqavilələr vərəsəliklə bağlı maddi, kolliziya və prosessual hüquq normalarının əsas unifikasiya vasitəsi qismində çıxış edir.

Təhlil istiqamətində qeyd olunan beynəlxalq müqavilərin müddəaları ilə AR qanunvericiliyi müqayisə edilir. Qeyd edilir ki, AR bu müqavilələrə tərəfdar olmadığı üçün, onların müddəalarının AR-in hüquqi sistemində birbaşa (inkorporasiya və göndərmə formasında) maddi hüquqi implementasiyası mümkün deyildir. Bu baxımdan həmin müqavilələr AR Konstitusiyasının 148.II-ci maddəsinə müvafiq olaraq, AR-in qanunvericilik sisteminin tərkib hissəsi sayıla bilməz. Ancaq, qeyd olunan beynəlxalq müqavilələrdəki mexanizmlərin səmərəli tətbiq təcrübəsi, AR-in həmin müqavilələrə tərəfdar çıxmasını zəruri edir.

Müqayisəli təhlil nəticəsində müəyyən edilmişdir ki, AR-in vərəsəliklə bağlı mövcud qanunvericiliyi, qeyd olunan beynəlxalq müqavilələrdə təsbit olunan əsas müddəalara uyğundur. Yəni AR bu müqavilələrə tərəfdar olmadan, dolayısı unifikasiya yolu ilə qanunvericiliyini bu müqavilələrin müddəalarına uyğunlaşdırmışdır. Bu halda harmonizasiya forması olan dolayısı unifikasiya qeyd olunan beynəlxalq müqavilələrin AR-in hüquqi sistemində

realizəsinin resepsiya forması qismində çıxış edir. Amma bu formada realizə aşağıdakıları istisna etmir: 1) AR qanunvericiliyi ilə beynəlxalq müqavilə normaları arasında ziddiyyətin olmasını; 2) beynəlxalq müqavilə norması (kolliziya norması) əsasında AR hüququnun tətbiq edilməsini.

**Üçüncü paraqraf "Vərəsəlik münasibətlərinin regional səviyyədə beynəlxalq-hüquqi tənzimlənməsinin xüsusiyyətləri"** adlanır və iki yarımparaqrafı özündə birləşdirir.

**Birinci yarımparaqrafda** vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində hüquqi əsas qismində regional beynəlxalq müqavilələr araşdırılır. Araşdırma çərçivəsində Bustamante Məcəlləsi, "Vəsiyyətnamələrin qeydiyyat sistemi barədə" 1972-ci il Bazel konvensiyası təhlil edilir. Qeyd edilir ki, universal beynəlxalq müqavilələrdə təsbit olunan prinsiplərə müvafiq olmaqla qeyd olunan müqavilələr regional səviyyədə ümumiləşdirməni həyata keçirir. Hərçənd Bustamante Məcəlləsi regional səviyyədə kolliziya normalaırının məcəlləşdirmə aktı kimi qəbul edilsə də, vərəsəliklə bağlı yalnız müəyyən sayda normaları özündə əks etdirir. Bundan fərqli olaraq, 1972-ci il Bazel konvensiyasının məqsədi regional səviyyədə vəsiyyətnamələrin qeydiyyatının vahid rejimini yaratmaqdır. Qeyd edilir ki, Avropa Şurasının üzvü olaraq AR-in bu Konvensiyaya tərəfdar olması, AR-də vəsiyyətnamələrin beynəlxalq qeydiyyat sisteminin yaradılması prosesini sadələşdirərdi. AR bu müqaviləyə qoşulmadığı müddətdə onun normalarının milli hüquq sistemində implementasiyası yalnız resepsiya formasında mümkün ola bilər.

AR-in tərəfdar olması baxımından "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il Minsk və 2002-ci il Kişinyov konvensiyaları vərəsəlik münasibətlərinin regional beynəlxalq-hüquqi tənzimlənməsində əhəmiyyətli rola malikdir. Hərçənd bu konvensiyalar vərəsəliklə bağlı müəyyən normalar nəzərdə tutur. Buna baxmayaraq vərəsəliklə bağlı həm kolliziya, həm də maddi və prosessual normaları təsbit etməsi, bu konvensiyaların MDB üzvü olan dövlətlərin subyektləri arasında yaranan beynəlxalq vərəsəlik münasibətlərinin tənzimlənməsində əhəmiyyətli beynəlxalq hüquqi mənbə qismində çıxış etməsini

şərtləndirir. Nəzərə almaq şərti ilə ki, 2002-ci il Kişinyov konvensiyasının üzvü olmayan dövlətlərlə münasibətdə 1993-cü il Minsk konvensiyasının müddəaları qüvvədədir.

**İkinci yarımparaqrafda** vərəsəlik münasibətlərinin Avropa İttifaqının komunitar hüququ çərçivəsində tənzimlənməsinin xüsusiyyətləri araşdırılır. Bu məqsədlə Avropa Parlamenti və Şurası tərəfindən qəbul edilən "Vərəsəlik məsələləri üzrə yurisdiksiya, tətbiq edilən hüquq, qərarların tanınması və icrası, notarial aktların qəbul edilməsi və icrası, o cümlədən vərəsəlik barədə avropa şəhadətnaməsinin yaradılması haqqında" 650/2012 saylı Avropa Reqlamenti (bundan sonra - 650/2012 saylı Reqlament) təhlil edilir.

Qeyd edilir ki, vərəsəlik münasibətlərinin tənzimlənməsi üzrə yeni beynəlxalq qaydalar müəyyən edən 650/2012 saylı Reqlament 2015-ci ildən sonra yaranan vərəsəlik münasibətlərinə tətbiq edilir. Beynəlxalq müqavilələrdə təsbit olunan vahid hüquqi rejim prinsipinə uyğun olaraq 650/2012 saylı Reqlament də miras əmlaka vahid hüququn tətbiq olunmasını nəzərdə tutur. Avropa vərəsəlik şəhadətnaməsinin verilməsini nəzərdə tutan 650/2012 saylı Reqlament, bu şəhadətnamə vasitəsi ilə vərəsələrə öz haqlarını digər üzv dövlətlərin ərazisində həyata keçirmək hüququ verir.

650/2012 saylı Reqlamentin vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində mənbə olaraq iştirak etməsi Avropa İttifaqı Fəaliyyət Müqaviləsinin 81-ci maddəsinə əsaslanır. Lakin 650/2012 saylı Reqlamentin mövcudluğu aşağıdakıları istisna etmir: 1) onun qəbul edilməsinə qədər bu və ya digər üzv dövlətin iştirak etdiyi beynəlxalq müqavilələrin tətbiqini; 2) onun müddəalarının iştirak etməyən dövlətlərə (Danimarka, İrlandiya, İngiltərə) şamil olunmamasını; 3) üzv dövlətlərin milli qanunvericiliyinin tətbiqini.

**Dördüncü paraqrafda** vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində ikitərəfli müqavilələrin əhəmiyyəti araşdırılır. Burada ilk növbədə AR-in iştirak etdiyi ikitərəfli hüquqi yardım haqqında müqavilələr təhlil edilir. Qeyd olunur ki, çoxtərəfli beynəlxalq hüquqi aktların mövcudluğu şəraitində ikitərəfli beynəlxalq müqavilələr vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində müqavilə tərəfləri arasında daha konkret tənzimetmə rejimi

müəyyən edir. Eyni zamanda çoxtərəfli beynəlxalq müqavilələr üçün xarakterik olan xüsusiyyətlər ikitərəfli beynəlxalq müqavilələr üçün də keçərlidir.

Müqayisəli təhlil əsasında ikitərəfli hüquqi yardım haqqında müqavilələrin aşağıdakı xüsusiyyətləri qeyd edilir.

*Birincisi*, bu müqavilələrdə vərəsəliyin müəyyən aspektləri (məsələn, milli rejimlə bağlı, miras əmlakın qəbul olunma müddətinin hesablanmasına, vərəsəsiz əmlaka dair və s.) ilə bağlı maddi hüquq normaları təsbit olunur.

*İkincisi*, hüquqi yardım haqqında ikitərəfli müqavilələrin heç də hamısı vərəsəliklə bağlı kolliziya normaları təsbit etmir. Məsələn, hüquqi yardım haqqında Türkiyə Respublikası ilə bağlanan 2002-ci il, Birləşmiş Ərəb Əmirlikləri ilə bağlanan 2006-cı il, Mərakeş Krallığı ilə bağlanan 2011-ci il müqavilələrində yalnız məhkəmə tapşırıqları və qərarlarının tanınması və icrası ilə bağlı müddəalar nəzərdə tutulur.

*Üçüncüsü,* milli qanunvericilikdən fərqli olaraq ikitərəfli hüquqi yardım haqqında müqavilələrdə vərəsəliyin statutunun müəyyən edilməsi üçün vahid rejim prinsipindən istifadə olunmur.

*Dördüncüsü*, ikitərəfli hüquqi yardım haqqında müqavilələrdə bir qayda olaraq vərəsəsiz miras əmlaka aid maddi hüquq normaları nəzərdə tutulur.

**Beşinci paraqrafda** vərəsəlik münasibətlərinin beynəlxaq-hüquqi tənzimlənməsi sistemində AİHM-in qərarlarının yeri məsələsi araşdırılır. Bu məqsədlə AİHM-in vərəsəlik hüququnun müxtəlif aspektlərinə toxunan bir çox qərarı *("Marks Belçikaya qarşı" (13.06.1979, № 6833/74), "İnza Avstriyaya qarşı" (28.10.1979, № 8695/79), "Mazurek Fransaya qarşı" (01.02.2000, № 34406/97), "Kemp və Bourimi Niderlanda qarşı" (3.10.2000, № 28369/95), "Karner Avstriyaya qarşı" 24.07.2003, № 40016/98), "Pla və Puncernau Andorraya qarşı" (13.07.2004, № 69498/01), "Brauer Almaniya qarşı" (28.05.2009, № 3545/04)), "Şərifə Yiğit Türkiyəyə qarşı" 02.11.2010)* təhlil edilir.

Qeyd edilir ki, AİHM-nin vərəsəliklə bağlı olan məhkəmə qəraraları müxtəlif səpkidədir. Bunlar sırasında nikahdankənar dünyaya gəlmiş uşaqların vərəsəlik məsələsi, həmcinslərin nikahından meydana gələn vərəsəlik münasibətlərini, dini nikah

əsasında yaranan vərəsəlik münasibətləri və s. məsələləri özündə ehtiva edən məhkəmə qərarlarını qeyd etmək olar.

AİHM-in qərarlarının mənbə olaraq əhəmiyyəti AR-in hüquqi sistemi baxımından qiymətləndirilərək qeyd edilir ki, AR-in hüquq sistemində bu qərarlar "şərh presedenti" olaraq qəbul olunmalıdır. AİHM-in qərarları bu statusda vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsində əlavə hüquqi mənbə qismində çıxış edə bilər. AR-in məhkəmə təcrübəsinə əsaslanarq, AİHM-in qərarlarından əlavə mənbə qismində istifadə edilməsinin aşağıdakı formalarını qeyd etmək olar: 1) münasibətlə bağlı konkret norma olmadığı halda; 2) təfsir məqsədi ilə, hər hansı bir anlayışın məzmununun müəyyən edilməsi halında. Bu formalarda AİHM-in qərarları, insan hüquqları sferasındakı beynəlxalq müqavilələrin vərəsəlik hüququ ilə bağlı konkret müddəa nəzərdə tutan və ya tutmayan, amma vərəsəlik hüququna da şamil edilə bilən (məsələn, mülkiyyət hüququna aid) müddəaların təfsirində mühüm əhəmiyyətə malikdir.

Dissertasiyanın üçüncü fəsli **"Vərəsəlik münasibətlərinə aid beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının hüquqi sistemində tətbiqinin xüsusiyyətləri"** adlanır və iki paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** beynəlxalq vərəsəlik münasibətlərindən yaranan mübahisələr üzrə beynəlxalq məhkəmə aidiyyatının müəyyən olunması" məsələsi araşdırılır. Bu məqsədlə beynəlxalq müqavilələr, 650/2012 saylı Reqlament və AR-in milli qanunvericiliyi müqayisəli təhlil edilir.

Qeyd edilir ki, beynəlxalq məhkəmə aidiyyəti məsələsinin yaranması vərəsəlik münasibətlərinin bu və ya digər dövlətin milli hüquqi sistemi çərçivəsində realizə olunması zərurətindən irəli gəlir. Bu baxımdan AR məhkəmələri tərəfindən vərəsəliklə bağlı beynəlxalq hüquq normalarının tətbqində ilk olaraq beynəlxalq məhkəmə aidiyyəti məsələsi aydınlaşdırılmalıdır. Əlbəttə bu zaman aidiyyətlə bağlı beynəlxalq hüquqi aktların, AR təcrübəsində beynəlxalq müqavilələrin normalarına istinad edilməlidir. Beynəlxalq müqavilə normalarının mövcudluğu şəraitində, həmin normalarla AR-in milli qanunvericiliyin ziddiyyət təşkil etməsi bir o qədər

əhəmiyyət kəsb etmir. AR-in iştirak etdiyi beynəlxalq müqavilələrin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, beynəlxalq məhkəmə aidiyyatı ilə bağlı bu müqavilələrin normaları ilə AR qanunvericiliyinin mövqeyi arasında ziddiyyətin olması qaçılmazdır.

Qeyd edilir ki, bu ziddiyyətin minimuma endirilməsi üçün Mülki Prosessual Məcəllənin (MPM) 443.0.11-ci maddəsindəki "vəsiyyət edən" termininin "miras qoyan şəxs" termini ilə əvəz edilməsi məqsədəuyğundur.

**İkinci paraqrafda** vərəsəliklə bağlı beynəlxalq hüquq normalarının AR məhkəmələri tərəfindən tətbiqinin xüsusiyyətləri təhlil edilir. Qeyd edilir ki, AR qanunvericiliyi beynəlxalq müqavilə normalarının məhkəmələr tərəfindən tətbiqi ilə bağlı konkret müddəalar nəzərdə tutur. "Normativ hüquqi aktlar haqqında" 2010-cu il Konstitusiya Qanunun 23.4-cü və MM-nin 3.1-ci maddələrinə müvafiq olaraq birbaşa tətbiq edilə bilər. MPM-nin 13.1-ci maddəsinə əsaslanan AR məhkəməsi AR-in tərəfdar olduğu beynəlxalq müqavilə normalarını tətbiq edir. Beynəlxalq müqavilə normasının məzmunundan asılı olaraq, bu normanı birbaşa tətbiq edə bilər. Yuxarıda qeyd olunan qanunvericilik müddəalarına uyğun olaraq, konkret məzmuna malik olan (özüicraedilən) beynəlxalq müqavilə normaları məhkəmə tərəfindən birbaşa tətbiq edilir. Bu halda beynəlxalq müqavilənin normalarının AR hüquqi sistemində realizəsi göndərmə formasında baş verir.

Qeyd olunur ki, beynəlxalq müqavilə normasının tətbiqi xüsusiyyəti, normanın kolliziya və ya maddi hüquq norması olmasından asılı olaraq fərqlənir. Konkret məzmunlu maddi hüquq normaları, məsələn, vərəsəsiz əmlakın hüquqi statusuna aid normalar birbaşa tətbiq edilir. Kolliziya normaları birbaşa formada tətbiq edilsə də, məhkəmə bu norma əsasında müəyyən edilən maddi hüquq normalarını tətbiq edir.

Təhlilin nəticəsi olaraq aşağıdakılar müəyyən edilir: 1) beynəlxalq müqavilə normalarının olması, milli qanunvericiliyin tətbiqini istisna edir. Bu halda milli qanunvericiliyin tətbiq subsidiar xarakter daşıyır. Subsidiarlıq beynəlxalq müqavilə normaları ilə AR-in milli qanunvericiliyi arasında ziddiyyətin olmasından asılı olmayaraq mövcud olur; 2) beynəlxalq müqavilə normaları

“Müqavilələr hüququ haqqında” 1969-cu il Vyana Konvensiyasına müvafiq olaraq, beynəlxalq hüququn *jus cogens* normalarına zidd olaraq tətbiq edilə bilməz. Bu kontekstdə məhkəmə AR-in publik qaydasına (ordre public) zidd olan beynəlxalq müqavilə normalarını tətbiq etmir; 3) beynəlxalq müqavilə normaları “Müqavilələr hüququ haqqında” 1969-cu il Vyana Konvensiyasının m.31-33-cü maddələrinə əsasən, müqavilənin məqsədinə uyğun olaraq təfsir edilməlidir; 4) konkret tənzimetmə rejimi müəyyən etməsi baxımından ikitərəfli beynəlxalq müqavilə normalarının tətbiqinə üstünlük verilir. Bu halda ikitərəfli beynəlxalq müqavilə normalarının tətbiqi, üzv dövlətlərin tərəfdar olduğu çoxtərəfli beynəlxalq müqavilələrin imperativ normalarına zidd ola bilməz.

**Dissertasiyanın nəticə hissəsində** əldə edilmiş mühüm təklif və nəticələri ümumi şəkildə belə ifadə edilə bilər:

1. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi beynəlxalq və milli hüquqi xüsusiyyətləri özündə ehtiva etməsi səbəbindən kompleks xarakterlidir. Tənzimetmənin kompleksliliyi milli qanunvericiliyin beynəlxalq hüquq normaları ilə uzlaşdırılması prinsipinə əsaslanır və bu tənzimetmədə milli hüququn tətbiqi subsidiar xarakter daşıyır.

2. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi insan hüquqlarının müdafiəsi çərçivəsində baş verir. Bu baxımdan insan hüquqları sahəsindəki beynəlxalq müqavilələr bu tənzimetmədə hüquqi əsas olaraq çıxış edir. AR qanunvericiliyi isə bu beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

3. Vərəsəlik hüququ mülkiyyət hüququnun tərkib ünsürünü təşkil edir. Buna uyğun olaraq AR Konstitusiyanın 29-cu maddəsinə əsasən, vərəsəlik hüququ subyektiv mənada özündə aşağıdakı hüquqları ehtiva edir: 1) şəxsin mülkiyyətini miras qoymaq hüququ; 2) vəsiyyət etmək hüququ; 3) vərəsələrin mirasdan pay almaq hüququ.

4. Vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi üzrə həm normayaradıcılığında (maddi mənada mənbə qismində), həm də tətbiq prosesində (bibaşa tətbiq edilməklə) istifadə edilən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri hüquqi əsas olaraq həm beynəlxalq hüquq qaydasını təşkil edir, həm də AR-in umimi qaydasına (*ordre public*) daxildir.

5. AR-in vərəsəlik qanunvericiliyində harmonizasiyanın resepsiya və qarşılıqlı harmonizasiya formalarından geniş istifadə olunur. Bunun realizəsi istiqamətində aşağıdakılar təklif olunur: 1) MM-nin 1243-cü maddəsinin realizəsi istiqamətində 1256-cı maddə MM-dən çıxarılmalı və miras əmlakı qəbul etməklə bağlı heç bir hərəkətin həyata keçirilməməsi mirasdan imtinaya bərabər tutulmalıdır; 2) vərəsəlik hüququnun realizəsi baxımından MM-nin 1193-cü maddəsinin "məcburi pay hüquqununun ölmüş şəxsin fəaliyyət qabiliyyəti olmayan uşaqları, əmək qabiliyyəti olmayan valideynləri və ya həyat yoldaşı və himayəsində olan əmək qabiliyyəti olmayan şəxslərə verilməsi" kimi dəyişdirilməsi daha məqsədəuyğun olardı; 3) insan hüquqları baxımından 16 yaşına çatmış şəxslərin vəsiyyət etmək hüququna malik olmaları məqsədəmüvafiq olardı; 4) vəsiyyət etmək hüququndan istifadə edə bilmək vəziyyətdən və şəraitdən asılı olmayaraq həyata keçirilə bilməlidir. Bu baxımdan hər hansı fövqəladə hadisənin baş verdiyi və yaxud müharibədə olan şəxslərin üç şahidin iştirakı ilə şifahi vəsiyyətnamə tərtib etmələrinə icazə verilməsi məqsədəmüvafiqdir; 5) MM-nin 1165-ci maddəsinin realizəsi kontekstində 1134 və 1135-ci maddələrə hüquqi şəxslərin də qanun üzrə vərəsə ola bilmələri ilə bağlı müddəa əlavə olunmalıdır.

6. AR-in vərəsəlik qanunvericiliyi AR-in tərəfdar olmadığı beynəlxalq müqavilələrin əsas müddəalarına *dolayısı unifikasiya* yolu ilə uyğunlaşdırılmışdır. Bu halda harmonizasiya forması olan *dolayısı unifikasiya* qeyd olunan beynəlxalq müqavilələrin AR-in hüquqi sistemində realizəsinin resepsiya forması qismində çıxış edir. Amma bu formada realizə aşağıdakıları istisna etmir: 1) AR qanunvericiliyi ilə beynəlxalq müqavilə normaları arasında ziddiyyətin olmasını; 2) beynəlxalq müqavilə norması (kolliziya norması) əsasında AR hüququnun tətbiq edilməsini.

7. Vərəsəlik münasibətərini tənzim edən hüquq normalarının daha səmərəli unifikasiya forması qismində AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrin milli hüquqi realizəsi inkorporasiya və göndərmə formasında baş verir. Göndərmə formasında bu növ beynəlxaq müqavilə normalarının tətbiqi *lex specialis deregat lex generalis (xüsusi qanun ümumi qanunu üstələyir)* prinsipinə uyğun

baş verir. Bu halda həmin müqavilə ilə ziddiyyət təşkil edən milli qanunvericilik aktının dəyişdirilməsinə və ya ləğv edilməsinə ehtiyac yoxdur.

8. Unifikasiya edilmiş maddi hüquq normalarının olması, vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi sistemində unifikasiya edilmiş kolliziya norması əsasında olsa belə, kolliziya hüquqi tənzimetməni istisna edir.

9. Avropa Şurasının üzvü olaraq AR-in regional səviyyədə vəsiyyətnamələrin qeydiyyatının vahid rejimini yaradan 1972-ci il Bazel konvensiyasına tərəfdar olması, AR-də vəsiyyətnamələrin vahid qeydiyyat sisteminə qoşulması prosesini sadələşdirərdi.

10. 650/2012 saylı Reqlamenti vərəsəlik münasibətlərinin regional beynəlxalq-hüquqi tənzimlənməsində mənbə qismində çıxış edir. Lakin 650/2012 saylı Reqlamentin mövcudluğu aşağıdakıları istisna etmir: 1) onun qəbul edilməsinə qədər bu və ya digər üzv dövlətin iştirak etdiyi beynəlxalq müqavilələrin tətbiqini; 2) onun müddəalarının iştirak etməyən dövlətlərə şamil olunmamasını; 3) üzv dövlətlərin milli qanunvericiliyinin tətbiqini.

11. Hüquqi yardım haqqında ikitərəfli müqavilələr çoxtərəfli beynəlxalq müqavilələrə nisbətdə vərəsəlik münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsi üçün xüsusi rejim müəyyən edir. Bu baxımdan çoxtərəfli beynəlxalq müqavilələrin olmaması şəraitində bu müqavilələr əlverişli beynəlxalq-hüquqi tənzimetmə vasitəsi olaraq çıxış edir.

12. AR-in hüquqi sistemində AİHM-in qərarları əlavə mənbə qismində aşağıdakı formalarda istifadə olunur: 1) münasibətlə bağlı konkret norma olmadığı halda; 2) təfsir məqsədi ilə, hər hansı bir anlayışın məzmununun müəyyən edilməsi halında. Sonuncu formada AİHM-in qərarları, insan hüquqları sahəsindəki beynəlxalq müqavilələrin müddəalarının vərəsəlik hüququ ilə bağlı təfsirində əhəmiyyətli ola bilər.

13. Beynəlxalq məhkəmə aidiyyətinin müəyyən edilməsi istiqamətində beynəlxalq müqavilə normaları ilə yarana biləcək ziddiyyətin minimuma endirilməsi üçün MPM-nin 443.0.11-ci maddəsindəki "vəsiyyət edən" termininin "miras qoyan şəxs" termini ilə əvəz edilməsi məqsədəuyğundur.

14. Beynəlxalq hüquq normalarının AR məhkəmələri tərəfindən tətbiqində aşağıdakılar nəzərə alınmalıdır: 1) beynəlxalq hüququn ümum qəbul edilmiş prinsipləri və özüicraedilən beynəlxalq müqavilə normaları birbaşa tətbiq edilir; 2) beynəlxalq müqavilə normaları "Müqavilələr hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasına müvafiq olaraq, beynəlxalq hüququn *jus cogens* normalarına zidd olaraq tətbiq edilə bilməz. Bu kontekstdə məhkəmə AR-in publik qaydasına (ordre public) zidd olan beynəlxalq müqavilə normalarını tətbiq etmir; 3) beynəlxalq müqavilə normaları, onunla AR-in milli qanunvericiliyi arasında ziddiyyətin olmasından asılı olmayaraq tətbiq edilir; 4) beynəlxalq müqavilə normaları "Müqavilələr hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasının m.31-33-cü maddələrinə əsasən, müqavilənin məqsədinə uyğun olaraq təfsir edilir; 5) konkret tənzimetmə rejimi müəyyən etməsi baxımından ikitərəfli beynəlxalq müqavilə normalarının tətbiqinə üstünlük verilir. Bu halda ikitərəfli beynəlxalq müqavilə normalarının tətbiqi, üzv dövlətlərin tərəfdar olduğu çoxtərəfli beynəlxalq müqavilələrin imperativ normalarına zidd ola bilməz.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Beynəlxalq xarakterli daşınmaz əmlakla bağlı vərəsəlik münasibətlərinə tətbiq edilən hüquq // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda beynəlxalq elmi-praktiki konfrans, - Bakı: - 3 iyun, - 2016, - s. 186-188.

2. Vəsiyyətnamənin formasına dair 1961-ci il Vyana konvensiyasının xüsusiyyətləri // Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Müasir dövrdə Azərbaycan Respublikasında hüquq elminin və təhsilinin əsas inkişaf tendensiyaları" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, - Bakı: 2017, - s. 208-211.

3. Beynəlxalq hüquqi tənzimetmə predmeti kimi vərəsəlik münasibətlərinin anlayışı və məzmunu // - Bakı: Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal, - 2017. № 1, - s. 102-106

4. Vəsiyyətnamənin forması barədə Vahid qanun haqqında Vaşinqton konvensiyası və Azərbaycan Respublikası qanunvericiliyi // - Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, - 2018. № 3-4, - s. 77-83.

5. Vərəsəsiz əmlakın beynəlxalq hüquqda hüquqi rejimi // - Bakı: Azərbaycan hüquq jurnalı, - 2018. № 1, - s. 63-68.

6. Beynəlxalq hüquqda nikahdankənar doğulmuş uşaqların vərəsəliyi // - Bakı: Azərbaycan hüquq jurnalı, - 2019. № 3, - s. 146-159.

7. Vərəsəlik münasibətlərinin hüquqi tənzimlənməsi sistemində regional aktların yeri // - Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Sosial Elmlər, - 2021. № 1, - s. 93-103.

8. Роль договоров Азербайджанской Республики о двусторонней правовой помощи в регулировании наследственных отношений с иностранным элементом // International scıentıfıc journal "Global scıence and Innovations 2021: Central Asia", - Kazakhstan: - october, - 2021, - p. 76-79

9. Vərəsəlik münasibətlərinin kollizion hüquqi tənzimlənməsi sahəsində Azərbaycan Respublikası qanunvericiliyinin xüsusiyyətləri // - Bakı: Polis Akademiyasının Elmi Xəbərləri, - 2022. №1, - s. 57-66.

10. Проблема определения международной подсудности в регулировании наследственных отношений // - Киев: Часопис Київського університету права, - 2022. № 1, - s. 274-280.

11. Avropa İnsan Hüquqları Məhkəmsinin predent təcrübəsinin vərəsəlik münasibətlərinin tənzimlənməsində rolu // - Bakı: Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal, - 2023. №1, - s. 91-101.

12. Наследственные отношения как предмет международно-правового регулирования. LIII İnternational Scientific-Practical conference "EurasiaScience". – Moscow: - 15 may, - 2023, - p.319-320

13. İnheritance statute: a comparative analysis of the legislation of different states // - Sumy: Legal horizons. Scientific and practical law journal, - 2023. № 1, - p. 45-56.

Dissertasiyanın müdafiəsi "29" "sentyabr" 2023-cü il tarixində saat "14:00" Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.44 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1148, Bakı ş., Zahid Xəlilov-33. I korpus, auditoriya 002.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "24" "iyul" 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.07.2023

Kağızın formatı:60x84

Həcm:43121

Tiraj: 100